## Şəhadətnamənin alınması üçün ərizə ilə birlikdə aşağıdakı sənədlər təqdim olunmalıdır:

1. şəxsiyyət vəsiqəsinin notariat qaydasında təsdiq edilmiş surəti;
2. kadrlar uçotunun şəxsi vərəqəsi;
3. tərcümeyi-hal;
4. ali hüquq təhsili haqqında sənədin (diplomun) notariat qaydasında təsdiq edilmiş surəti (xarici dövlətlərin ali təhsil sahəsində ixtisasları Azərbaycan Respublikasında tanınmaqla və ekvivalentliyi müəyyən edilməklə (nostrifikasiya olunmaqla);
5. hərbi biletin və ya onu əvəz edən sənədin notariat qaydasında təsdiq edilmiş surəti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölməsindənhəqiqi hərbi xidmət keçmə və qeydiyyat haqqında, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ vardırsa və ya azad edilmişdirsə müvafiq təsdiqedici sənəd;
6. əmək fəaliyyəti ilə məşğul olduqda əmək kitabçasının təsdiq edilmiş surəti (notariat qaydasında və ya kadrlar xidməti tərəfindən);
7. xidməti xasiyyətnamə (işləyənlər üçün);
8. fiziki və əqli cəhətdən sağlam olması haqqında Nazirliyin tibb xidmətinin arayışı;
9. 4x6 sm ölçüdə 2 ədəd və 3x4 sm ölçüdə 2 ədəd rəngli (ağ fonda) fotoşəkil.